# “Dövlət rüsumu haqqında” Qanunun 10-cu və “Notariat haqqında” Qanunun 29-cu maddələrinə əsasən notariat hərəkətlərinin aparılmasına görə tutulan dövlət rüsumunun dərəcələri və göstərilən xidmətə görə haqqın məbləğləri barədə məlumat

Dövlət rüsumu-dövlət orqanları tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənilən haqdır (ödənişdir).

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu və “Notariat haqqında” Qanunun 29-cu maddələrinə əsasən notariat ofisləri və dövlət orqanları tərəfindən notariat hərəkətlərinin aparılmasına və göstərilən xidmətə görə haqq ödənilir və bununla bağlı notariat hərəkətlərinin aparılması ilə bağlı dövlət rüsumu və xidmət haqqı aşağıda göstərilən cədvəl əsasında icra edilir.

| Notariat hərəkətləri | Dövlət rüsumunun məbləği | Xidmət haqqının məbləği | Cəmi ödəniləcək məbləğ |
|---|---|---|---|
| 10.1. Daşınmaz əmlakın (torpaq sahələri , binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər) və ya mülkiyyətində daşınmaz əmlak olan müəssisədəki payın özgəninkiləşdirilməsi və yaşayış sahələrinin müvəqqəti istifadəyə verilməsi barədə müqavilələrin təsdiqi üçün: | | | |
| 10.1.1 . müqavilə üzrə əmlak ərin (arvadın), uşaqların, valideynlərin, babanın, nənənin, nəvənin,qardaşın, bacının mülkiyyətinə keçirsə | 25 manat | 3,75 manat | 28,75 manat |
| 10.1.2. müqavilə üzrə əmlak başqa şəxslərin mülkiyyətinə keçirsə | 280 manat | 42 manat | 322 manat |
| 10.1.3. yaşayış sahələrinin müvəqqəti istifadəyə verilməsi üçün | 35 manat | 5,25 manat | 40,25 manat |

| | | | |
|---|---|---|---|
| 10.2. Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi müqavilələrinin təsdiqi üçün: | | | |
| 10.2.1. müqavilə üzrə əmlak ərin (arvadın), uşaqların, valideynlərin, babanın, nənənin, nəvənin,qardaşın, bacının mülkiyyətinə keçirsə | 35 manat | 5,25 manat | 40,25 manat |
| 10.2.2. müqavilə üzrə əmlak digər şəxsin mülkiyyətinə keçirsə | 70 manat | 10,50 manat | 80,50 manat |
| 10.3. Yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin müddətsiz istifadəyə verilməsi haqqındamüqavilələrin təsdiqi üçün: | | | |
| 10.3.1. müqavilə üzrə istifadə hüququ ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə,qardaşa, bacıya keçirsə | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.3.2. müqavilə üzrə istifadə hüququ digər şəxsə keçirsə | 20 manat | 3 manat | 23 manat |
| 10.4. Kredit müqavilələrinin təminatı kimi bağlanılan girov (ipoteka) müqavilələri üzrə: | | | |
| 10.4.1. dəyəri 2000 manatadək | 6 manat | 0,90 manat | 6,90 manat |
| 10.4.2. dəyəri 2000 manatdan 5000 manatadək | 25 manat | 3,75 manat | 28,75 manat |
| 10.4.3. dəyəri 5000 manatdan çox olduqda | 40 manat | 6 manat | 46 manat |
| 10.5. İpoteka krediti hesabına alınan yaşayış sahəsinə dair qarışıq müqavilə formasında bağlanan alqı-satqı və ipoteka müqaviləsinin təsdiqi üçün: | | | |
| 10.5.1. Bakı şəhərində | 150 manat | 22,50 manat | 172,50 manat |
| 10.5.2. digər şəhər və rayonlarda | 50 manat | 7,50 manat | 57,50 manat |
| 10.6. Qanunvericilikdə nəzərdə tutulmuş güzəştli ipoteka krediti hesabına alınan yaşayış sahəsinədair qarışıq müqavilə formasında bağlanan alğı-satqı və ipoteka müqaviləsinin təsdiqi üçün: | | | |
| 10.6.1. Bakı şəhərində | 60 manat | 9 manat | 69 manat |
| 10.6.2. digər şəhər və rayonlarda | 25 manat | 3,75 manat | 28,75 manat |
| 10.7. Qiymətləndirilən başqa müqavilələrin təsdiqi üçün: | | | |
| 10.7.1. tərəflər ər (arvad), uşaqlar, valideynlər, baba, nənə, nəvə, qardaş, bacıdan ibarətdirsə | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.7.2. tərəflərdən biri kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki və ya hüquqişəxsdirsə | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.7.3. tərəflər digər şəxslərdirsə | 100 manat | 15 manat | 115 manat |
| 10.8. Əmlak bölgüsü, zaminlik, təsis və başqa qiymətləndirilməyən müqavilələrin, əvvəllərbağlanmış müqavilələrin ləğvi barədə sazişin təsdiqi üçün: | | | |
| 10.8.1. tərəflər ər (arvad), uşaqlar, valideynlər, baba, nənə, nəvə, qardaş, bacıdan ibarətdirsə | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.8.2. tərəflər digər şəxslərdirsə | 30 manat | 4,50 manat | 34,50 manat |
| 10.9. Vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi üçün: | | | |
| 10.9.1. qanunla müəyyən edilən bütün növbəli vərəsələrə (şəhadətnamənin qanun üzrə və yavəsiyyətnamə üzrə verilməsindən asılı olmayaraq) | 25 manat | | 25 manat |
| 10.9.2. vərəsə digər şəxsdirsə | 50 manat | | 50 manat |
| 10.10.Ər-arvadın birgə nikah müddətində əldə etdikləri ümumi birgə əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsi üçün | 15 manat | | 15 manat |
| 10.11. Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ona sərəncam verilməsi ilə bağlı verilən etibarnamələrin təsdiqi üçün: | | | |
| 10.11.1. etibarnamə təmsil edilənin ərinə (arvadına), uşaqlarına, valideynlərinə, babasına, nənəsinə,nəvəsinə, qardaşına, bacısına verilərsə | 15 manat | 2,25 manat | 17,25 manat |

| | | | |
|---|---|---|---|
| 10.11.2. etibarnamə digər şəxslərə verilərsə | 30 manat | 4,50 manat | 34,50 manat |
| 10.12. Nəqliyyat vasitələrindən istifadə edilməsi və başqa etibarnamələrin təsdiqi üçün: | | | |
| 10.12.1. etibarnamə təmsil edilənin ərinə (arvadına), uşaqlarına, valideynlərinə, babasına, nənəsinə, nəvəsinə, qardaşına, bacısına verilərsə | 10 manat | 1,50 manat | 11,50 manat |
| 10.12.2. etibarnamə digər şəxslərə verilirsə | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.13. Vərəsəlik əmlakının mühafizəsi barədə tədbir görülməsi üçün | 30 manat | | 30 manat |
| 10.14. Dəniz protestlərinin tərtibi üçün | 30 manat | | 30 manat |
| 10.15. Vəsiyyətnamələrin təsdiqi üçün | 15 manat | 2,25 manat | 17,25 manat |
| 10.16. Notariat qaydasında təsdiq edilmiş sənədlərin təkrarən verilməsi (dublikat) üçün | 6 manat | | 6 manat |
| 10.17. Sənədlərdəki imzanın həqiqiliyinin, həmçinin tərcüməçinin imzasının həqiqiliyinin (hər imzaüçün) təsdiqi üçün | 3 manat | 3 manat | 6 manat |
| 10.18. Sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi (hər səhifəyə görə) üçün | 1,5 manat | 1,5 manat | 3 manat |
| 10.18. Sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi (hər səhifəyə görə), sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi və vətəndaşla fotoşəkildəki şəxsin eyniliyinin təsdiqi üçün | 1,5 manat və sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi üçün ikinci səhifədən başlayaraq hər səhifəyə görə 0,50 manat | 1,5 manat və sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi üçün ikinci səhifədən başlayaraq hər səhifəyə görə 0,50 manat | 3 manat |

| | | | |
|---|---|---|---|
| Nümunə üçün:<br>2 səhifədən ibarət olduqda<br>3 səhifədən ibarət olduqda<br>4 səhifədən ibarət olduqda<br>5 səhifədən ibarət olduqda | <br>2 manat<br>2,5 manat<br>3 manat<br>3,5 manat | <br>2 manat<br>2,5 manat<br>3 manat<br>3,5 manat | <br>4 manat<br>5 manat<br>6 manat<br>7 manat |
| 10.19. İcra qeydlərinin aparılması üçün | 25 manat | | 25 manat |
| 10.20. Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamələrin verilməsi (hazırlanmış hər səhifəyə görə) və bu Qanunun 10.1-10.19-cu maddələrində göstərilənlərdən başqa digər notariat hərəkətləri üçün | 10 manat | ------------ | 10 manat |
| 10.21. Müştərinin verdiyi bildiriş üzrə əvvəlcədən razılaşdırılmış vaxtda qəbulu üçün | 7,50 manat | | 7,50 manat |
| 10.22. Bu Qanunda nəzərdə tutulmuş notariat hərəkətlərinin müştərinin qabaqcadan verdiyi bildirişüzrə iş yerindən kənarda aparılmasına görə (1 saat üçün) | 10 manat (notariusun iş yerindən kənarda notariat hərəkətlərinin aparılmasına görə 1 saatdan əlavə sərf olunan hər saat üçün 5 manat) | | 10 manat (notariusun iş yerindən kənarda notariat hərəkətlərinin aparılmasına görə 1 saatdan əlavə sərf olunan hər saat üçün 5 manat) |
| 10.23. Ödəniş (qiymətli) kağızlarına dair təsdiq qeydi və imtina (protest) aktlarının rəsmiləşdirilməsi üçün | 7,50 manat | | 7,50 manat |
| 10.24. Notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin verilməsinə görə | 150 manat | | 150 manat |
| 10.25. Notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin müddətinin uzadılmasına görə | 75 manat | | 75 manat |

## Dövlət rüsumu haqqında qanun- Maddə 13-1. Müvafiq sənədə apostil verilməsi üçün tutulan dövlət rüsumunun dərəcəsi

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| Müvafiq sənədə apostil verilməsi. | 10 manat |

## Dövlət rüsumu haqqında qanun- Maddə 11. Notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar və dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri

11.1. Notariat hərəkətlərinin aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir:
11.1.1. doğumu, ölümü, övladlığa götürülməni və atalığı (analığı) təsdiqləyən sənədləri almaq üçün;
11.1.2. təminatlı kreditorun iştirakçısı olduğu girov və ya ipoteka müqaviləsi ilə bağlı notariat hərəkətləri aparılarkən dövlət rüsumu tutulmuşdursa, həmin müqavilədən irəli gələn borc öhdəliklərinin təmin edilməsi üçün iflas prosesi zamanı təminatlı kreditor ilə əmlak inzibatçısı arasında bağlanmış saziş ilə əlaqədar notariat hərəkətləri üzrə - təminatlı kreditor və əmlak inzibatçısı;
11.1.3. mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə - işləyib-işləməməsindən asılı olmayaraq müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, qaçqınlar və məcburi köçkünlər;
11.1.4. Mülki-hüquqi əqdlərin bağlanması zamanı, habelə mənzil (fərdi ev) alınması və ya dəyişdirilməsi əqdləri ilə bağlı notariat hərəkətləri üzrə - "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər və qəyyumluqda (himayədə) olan uşaqlar;
11.1.5. pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə;
11.1.6. notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan sənədlərin, o cümlədən notariat işinə əlavə edilməsi məqsədi ilə hazırlanmış sənədlərin notariat qaydasında təsdiq edilməsinə görə;
11.1.7. digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcıya keçirilərək təsdiq edilməsinə görə;
11.1.8. sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslər tərəfindən verilən etibarnamələr üzrə.
11.2. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.
Notarius tərəfindən notariat hərəkətlərinə görə dövlət rüsumunun qəbulu zamanı ödəyiciyə dövlət rüsumunun ödənilməsini təsdiq edən rəsmi sənədin (mədaxil qəbzi, kassa mədaxil orderi və s.) əsli verilir.
11.3. Bu Qanunun 10.1.2-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər regionlar üzrə isə 50 faizi ödənilir.